Heydər Əliyev - xalq birliyi əbədidir!

AĞSTAFA

Qəzet 1991-ci ildən çıxır | İctimai-siyasi qəzet | № 14-15 (802-803) | 20-25 avqust 2015-ci il | Qiyməti 50 qəpik

"Ağstafanın füsunkar təbiəti, gözəl insanları vardır".
Heydər Əliyev

Prezident İlham Əliyev Bakının Pişəvəri, Cavadxan, Hüseyn Seyidzadə küçələrində aparılan abadlıq və yenidənqurma işlərindən sonrakı vəziyyətlə tanış olub

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verdi. Bildirildi ki, Pişəvəri, Cavadxan, Hüseyn Seyidzadə küçələrində ümumilikdə 300 min kvadratmetrə yaxın sahəyə asfalt döşənib, yol işarələri ikikomponentli yüksək keyfiyyətli boyalarla rənglənib. Pişəvəri küçəsi ikiistiqamətli və dördzolaqlı olmaqla geniş-ləndirilərək əsaslı şəkildə yenidən qurulub. Küçə boyu səkilər tamamilə yenilənib, ən müasir işıqlandırma sistemi quraşdırılıb, yeni yaşıllıq zolaq-ları salınıb. Heydər məscidinə gedən küçələrin hamısında abadlıq və yenidənqurma işləri həyata keçirilib.

Görülən işlərlə tanışlıqdan sonra Prezident İlham Əliyev Pişəvəri küçəsinin yenidənqurmadan sonra açılışını bildirən lenti kəsdi.

Dövlətimizin başçısı Cavadxan və Hüseyn Seyidzadə küçələrində və bu küçələrin kəsişdiyi ərazilərdə aparılan abadlıq-quruculuq işlərindən sonrakı vəziyyətlə də tanış oldu.

Bu küçələrə də yeni asfalt örtüyü döşənib, səkilər və buradakı yol ötürücüsü yenidən qurulub, ətraf abadlaşdırılıb, yeni yaşıllıq zolaqları salınıb, müxtəlif ağac və gül kolları əkilib. Əsaslı şəkildə yenidən qurulmuş bu küçələrin hamısında yeraltı kommunikasiyalar və su xətləri dəyişdirilib, yeni işıqlandırma sistemi qurulub.

Bütün bunlar göstərir ki, ölkədə yol-nəqliyyat kompleksinin yenidən qurulması, yeni yolların salınması, mövcud olanların isə əsaslı şəkildə təmir olunması ilə bağlı layihələr uğurla davam etdirilir. Hazırda ölkədə beynəlxalq və respublika əhəmiyyətli magistral yolların salınması ilə yanaşı, yerli əhəmiyyətli, xüsusən də paytaxtdaxili yolların müasir səviyyədə qurulmasına xüsusi diqqət yetirilir. Bu da təbii ki, Bakıda aparılan genişmiqyaslı abadlıq işlərinin mühüm tərkib hissəsidir. Prezident İlham Əliyevin tapşırıqlarına əsasən bu sahədə görülən işlər həm də Bakı şəhərindəki yollarda avtomobillərin rahat hərəkətinin təmin olunmasına və tıxac probleminin aradan qaldırılmasına yönəlib.

YAP Mərkəzi Seçki Qərargahı Milli Məclisə seçkilərə hazırlıqla əlaqədar Gəncədə zona müşavirəsi keçirib

Yeni Azərbaycan Partiyası (YAP) Mərkəzi Seçki Qərargahı respublikamızın qərb bölgəsi üzrə şəhər və rayon şöbələrinin qarşıdakı parlament seçkilərinə hazırlıq işləri ilə əlaqədar Gəncədə zona müşavirəsi keçirib.

YAP Mərkəzi Seçki Qərargahının Gəncə şəhəri, Qazax, Tovuz, Ağstafa, Gədəbəy, Şəmkir, Daşkəsən, Samux, Göygöl rayon şöbələri üzvlərinin iştirakı ilə keçirilən müşavirədə əvvəlcə YAP Gəncə şəhər və Qazax rayon təşkilatları rəhbərlərinin seçkilərə hazırlıqla bağlı hesabat xarakterli məlumatları dinlənilib. Sonra Baş nazirin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini-icra katibi Əli Əhmədov Milli Məclisə keçiriləcək növbəti seçkilərlə bağlı qarşıda duran vəzifələrdən danışıb. Baş nazirin müavini diqqətə çatdırıb ki, əvvəlki seçkilərdə olduğu kimi, Yeni Azərbaycan Partiyası növbəti seçkilərə də ciddi hazırlaşır. İlk növbədə seçkilərdə mütəşəkkillik nümayiş etdirmək üçün rayon və şəhər təşkilatlarında YAP Mərkəzi Seçki Qərargahının şöbələri yaradılaraq, partiyanın fəalları hazırlıq prosesinə cəlb edilib.

Azərbaycanda keçirilən bütün seçkilərdə insanların rəğbətini qazanan Yeni Azərbaycan Partiyasının bu seçkilərdə də qələbə qazanacağına inamını ifadə edən Əli Əhmədov qeyd edib ki, bu gün müstəqil Azərbaycanın beynəlxalq aləmdə iqtisadi və siyasi mövqeyinin daha da möhkəmləndirməsi, beynəlxalq qurumların hesabatlarında islahatçı ölkə kimi yer tutması, dünyanın nüfuzlu təşkilatlarının Azərbaycanın mövqeyini dəstəkləyən qərarlar və qətnamələr qəbul etməsi bir həqiqəti ortaya qoyur ki, ölkəmizin seçdiyi yol düzgündür və bu yol bizi uğurlu gələcəyə aparır. Dövlətimizin uğurlu sosial-iqtisadi siyasətinin nəticəsidir ki, beynəlxalq aləm inkişafın Azərbaycan modelinin mövcudluğunu təqdir edir və öyrənilməsinin vacibliyini bildirir. Ölkəmizin hərtərəfli tərəqqisində qeyri-neft sektorunun inkişafını vacib amil kimi önə çəkən Prezident İlham Əliyevin bu istiqamətdə atdığı davamlı addımlar iqtisadiyyatımızın şaxələndirilməsini reallığa çevirib. Nəticədə son 10 ildə Azərbaycanda iqtisadiyyat dörd dəfə artıb. Əlbəttə, bu rəqəmin arxasında güclü siyasət dayanır. Əhalinin həyat səviyyəsi ildən-ilə yüksəlir. Regionlarda həyata keçirilən infrastruktur layihələri insanların uzun illərdən bəri çəkdiyi əziyyətlərə son qoyub. Onların həyatının keyfiyyətcə dəyişməsi gələcəyə olan ümidlərini artırıb. Ən əsası isə Azərbaycanda ictimai-siyasi sabitlik daimi xarakter alıb.

Respublikada 6 milyon seçicinin olduğunu diqqətə çatdıran Əli Əhmədov qarşıdakı parlament seçkilərində seçicilərlə işin əsas fəaliyyət istiqamətlərindən biri olduğunu, xüsusilə gənclər və qadınlarla aparılan işin böyük əhəmiyyət daşıdığını qeyd edib. Bildirib ki, partiyanın üzvləri bütün imkanlardan istifadə etməklə prinsipial mövqe nümayiş etdirməlidirlər. Xüsusilə təbliğat-təşviqat kampaniyasında verilən seçici tapşırıqlarına ciddi nəzarət etməli, seçkilərin azad, şəffaf və demokratik keçirilməsinə öz töhfələrini verməlidirlər.

Sonda Əli Əhmədov əvvəlki seçkilərdə olduğu kimi, qarşıdan gələn parlament seçkilərində də Yeni Azərbaycan Partiyasının inamlı qələbə qazanacağına əminliyini ifadə edərək, seçkilərin mütəşəkkil keçməsi üçün YAP Mərkəzi Seçki Qərargahının şəhər və rayon şöbələri üzvlərinə tapşırıq və tövsiyyələrini verdi.

Yeni Azərbaycan Partiyası icra katibinin müavini Mübariz Qurbanlı və Milli Məclisin aqrar siyasət daimi komitəsinin sədri Eldar İbrahimov müşavirədə iştirak ediblər.

Polis işçilərinin fəallığı

Azərbaycan polisi yarandığı gündən ölkə daxilində sabitliyin qorunmasında, ictimai asayişin mühafizəsində, birgə yaşayış qaydalarına hər zaman əməl edilməsinə gecə və gündüz ciddi nəzarət edir. Cinayətkarlığa qarşı mübarizə, oğurluq, tüfeylilik, narkomaniya kimi zərərli meyillərin aradan qaldırılması işlərində də polis işçilərinin xidməti çoxdur. Ona görə də müstəqil dövlətimiz həm müstəqlliyimizin möhkəmləndirilməsində müqəddəs qanunlarımızın qorunmasında, ölkə daxilində sabitlik yaradılmasında polis işçilərinə böyük ümidlər bəsləyir.

Təsadüfi deyildir ki, ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan polis orqanlarının daha da təkmilləşdirilməsi, onun sıralarının daha bacarıqlı və vətənpərvər gənclərlə genişləndirilməsi sahəsində çox mühüm tədbirlər görülmüşdür. Ulu öndər Heydər Əliyevin 1998-ci il 24 may tarixli Fərmanı ilə hər il iyul ayının əvvəlində Azərbaycan polisinin peşə bayramı ümumxalq bayramı kimi qeyd olunur.

Öz vəzifələrini həmişə yüksək səviyyədə yerinə yetirməyə səy göstərən polis işçilərimiz hər il olduğu kimi, bu il də peşə bayramlarını yüksək səviyyədə qeyd etmişlər. Əlamətdar bayram günü münasibətilə Ağstafada da təntənəli tədbir keçirilmişdir. Bayram tədbirində Respublika Daxili İşlər Nazirliyinin məsul şəxsləri, rayon icra hakimiyyətinin və hüquq-mühafizə orqanlarının rəhbər işçiləri, rayon polis şöbəsinin rəhbərləri və şəxsi heyəti iştirak etmişdir.

Rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev peşə bayramı münasibətilə polis şöbəsinin zabit və sıravi heyətini təbrik etmiş, ölkəmizdə dövlətçiliyin qorunması, cinayətkarlığa qarşı mübarizə və ictimai asayişin mühafizəsində Azərbaycan polisinin keçdiyi şərəfli xidmət yolundan danışmışdır. O, qeyd etmişdir ki, rayonumuzun polis işçiləri də ictimai-sabitliyin qorunması, hər cür hüquq pozuntularına qarşı profilaktik tədbirlərin həyata keçirilməsi sahəsində əhəmiyyətli işlər görürlər.

Təntənəli tədbirdə Rayon icra hakimiyyətinin başçısı rayon ərazisində ictimai asayişin qorunmasında, cinayətkarlığa qarşı mübarizə işlərində və xüsusi tədbirlərin yerinə yetirilməsində fərqləndiklərinə görə rayon polis şöbəsinin bir qrup əməkdaşına "Fəxri fərman" və qiymətli hədiyyələr təqdim olunmuşdur. Polis əməkdaşlarımız tədbirin sonunda bundan sonra da dövlətçiliyimizin möhkəmləndirilməsində, ictimai-siyasi sabitliyin və asayişin qorunmasında, hər cür cinayətkarlıq hallarına qarşı barışmaz mübarizə aparmaq işlərində səy və bacarıqlarını əsirgəməyəcəklərinə and içmişlər.

Yeni təkliflər irəli sürüldü

Rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev ictimaiyyətlə növbəti görüşünü Poylu kəndində və Poylu qəsəbəsində keçirmişdir. Görüşdə iştirak edən kənd sakinləri öz ürək sözlərini icra başçısına söyləmiş, yeni təkliflər irəli sürmüş və həmin təkliflərin həyata keçirilməsində kənd sakinlərinə köməklik gstərilməsini xahiş etmişlər.

3300 nəfər əhalisi olan Poylu kəndi rayon mərkəzindən bir qədər aralıda yerləşsə də, bu yaşayış məntəqəsində son illər xeyli iş görülmüş, kəndin mərkəzindən keçən yola asfalt salınmış, kənddəki uşaq bağçası əsaslı təmir edilib istifadəyə verilmiş və başqa bir uşaq başçası-körpələr evinin inşa edilməsi planlaşdırılmışdır.

Bütün bunlar görüşdə iştirak edən kənd sakinləri tərəfindən qeyd olunmuş və onlara göstərilən diqqət və qayğı çıxış edənlər tərəfindən yüksək qiymətləndirilmiş, bütün bunlara görə möhtərəm prezidentimiz cənab İlham Əliyevə dərin minnətdarlıqlarını bildirmişlər.

Görüşdə iştirak edən kəndin ağsaqqalı Valeh Yaqubov öz çıxışında kənd əhalisi üçün vacib məsələ olan işməli su problemindən danışmış və qeyd etmişdir ki, kəndin bəzi məhəllələrində əhali içməli sudan korluq çəkir. O, bu problemin həll edilməsi üçün kənd əhalisinə köməklik göstərilməsini xahiş etdi.

Kənd sakinləri Taryel Nəsibov, Adil İsmayılov son illər rayonda aparılan tikinti-quraşdırma, abadlıq işlərini ürəkdən bəyəndiklərini bildirdilər və bütün bunlara görə rayon rəhbərliyinə dərin təşəkkürlərini bildirdilər. Onlar qeyd etdilər ki, Poylu kəndindəki kənd orta məktəbi uzun illərdir ki, əsaslı təmir olunmur. Məktəbdə tədrisin müasir tələblər səviyyəsində təşkil olunmasını təmin etmək üçün bacarıqlı müəllimlərin olmasına baxmayaraq, lazımi şərait yoxdur. Onlar həmçinin kənddə içməli su məsələsinə də toxunaraq bu problemlərin həll olunmasını rayon rəhbərliyindən xahiş etdilər.

Rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev görüşdə çıxış edərək irəli sürülən təklif və xahişlərə öz münasibətini bildirdi və qeyd etdi ki, bu problemlərin həll olunması üçün bütün imkanlardan istifadə ediləcəkdir.

Poylu kəndində keçirilən görüşdən sonra Rayon icra hakimiyyətinin başçısı M. Quliyev Poylu qəsəbəsində olmuş, qəsəbə orta məktəbinin yeni dərs ilinə hazırlığının vəziyyəti ilə maraqlanmış və elə oradaca qəsəbənin ictimaiyyət nümayən-dələri ilə görüşüb söhbət aparmışdı. Görüşdə İsmayıl Kazımov, İbrahim İbrahimov, Nigar Əliyeva qəsəbə sakinlərini narahat edən bəzi problemlərdən danışaraq, həmin problemlərin aradan qaldırılmasında onlara köməklik göstərilməsini xahiş etdilər.

İ. Əliyev

Məktəb həyatı

Qızıl medalın ünvanı

Nicat Rüstəmovun adı Qaçaq Kərəm kənd tam orta məktəbin müəllim və şagird kollektivlərinin dilindən düşmür. Səbəbsiz deyil. Bilik və bacarığı ilə məzunlar arasında fərqlənərək qızıl medala layiq görülmüşdür. Üstəlik də sevib-seçdiyi Bakı Ali Neft məktəbinə sənəd verərək ən yüksək balla neft və qaz mühəndisliyi fakültəsinə qəbul olunmuşdur...

Hər il olduğu kimi bu il də məktəbin məzunları bu nümunəvi təhsil ocağının şöhrətini, yaradılmış gözəl ənənəni qoruyub saxlamağa nail olmuşlar. Məzunlardan 20 nəfər ali məktəblərə sənəd vermişdir. Onlardan 13 nəfəri yüksək balla ən nüfuzlu ali məktəblərə qəbul olunmuşdur. Yeri gəlmişkən, bir gözəl və önəmli faktı da qeyd etmək lazımdır ki, məktəbin bundan əvvəlki illinin yaxşı nəticələrinə görə Ağstafa rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev məktəbi diplomla təbrik etmişdir. Bu diqqət və qayğıya məktəbin pedaqoji kollektivi məhz cari ildə öz əməli işlərilə cavab vermişdir.

Məktəbin ənənəsinə uyğun olaraq qazanılmış nəticələr barədə məktəbin direktoru Rahilə Mansurova redaksiyamıza belə açıqlama verdi:

-Məktəbimizə müvəffəqiyyəti qazandıran amillər çoxdur. Hər birisinin də nəticəyə yönələn xidməti vardır. Elə götürək sinif müəllimlərinin zəhmətini və əlavə edərdim ki, gərgin əməklərini. Şagirdlərə bilik aşılanmasında, müsbət vərdişlərin mənimsənilməsində onların işləri daha çoxdur. Pedaqoji kollektiv və valideynlər Aygün İbrahimovadan, Maya Qasımovadan, Sevda İsmayılovadan, Tərminə Bayramovadan, Arzu İsmayılovadan, Rəna Əsgərovadan, Gülnar Bayramovadan həmişə razılıqla söhbət açırlar.

Yaradıcı əməklə fəaliyyət göstərmək vərdişi hər bir müəllimə xas olan xüsusiyyət olmalıdır. Ürəklə deyə bilərəm ki, bizim müəllimlərin işində bu üsul həmişə nəzərə çarpır. Ona görə də müxtəlif təhsil yarışlarında, xüsusilə, fənn olimpiadalarında şagirdlərimiz fərqlənməyə səy göstəririlər. Əksər hallarda da istədiklərinə nail olurlar. Fənn müəllimlərinin-tarixdən Kəmalə Həsənova və Sədayə Bilalova, fizikadan Kəmalə Yaqubəliyeva, riya-ziyyatdan Nazilə Alcanova, kimyadan Təranə Əkbərova dərsləri çox canlı, şagirdlərin fəallığı ilə başa çatdırırlar.

Yeni dərs ilinin başlanmasına sayılı günlər qalır. Söz yox ki, müəllim və şagird kollektivlərimizin nəfəsi ilə təhsil ocağımız yenə canlanacaq və son nəticə uğrunda bacarıqlarını əsirgəməyəcəklər.

Q.Qurbanov

Atalar yaxşı deyiblər: Niyyətin hara, mənzilin ora. Mirhəbib Oqtay oğlu Seyidəliyev orta məktəbdə oxuyarkən, bir arzu ilə yaşamış və bu arzuya çatmaq üçün fikri-zikri həmişə kitablarda olmuşdur. O, gündüzlər nə qədər oxuyurdusa da, gecənin bir yarısında yuxudan oyanır, saatlarla dərs kitablarından aralana bilmirdi. Bunu görən anası Gözəl xanım oğlunun bu qədər zəhmətə qatıldığını hiss edərək onun orta məktəb müəllimlərindən xahiş edirdi ki, Mirhəbibə tapşırsınlar ki, gecələr kitabı az oxusun, gözünə, sağlamlığına ziyan ola bilər.



Müəllimlərimi heç vaxt unutmaram

Lakin Mirhəbib valideynlərinin, müəllimlərinin məsləhətlərini dinləyib qəbul etsə də, bildiyindən əl çəkməmiş, nə gecə, nə də ki, gündüz dərs kitablarından ayrılmamışdı. O, arzusuna çatmaq üçün 9-10-11-ci siniflərdə daha gərgin çalışmış, hətta dərsdən sonra müəllimləri Raya, Gülcöhrə, Mehriban, Sevinc, Vüsalə xanımı, Məmmədhəsən müəllimi rahat qoymamış, onların evlərinə getmiş, elmin sirlərini daha dərindən öyrənməyə səy göstərmişdi.

Mirhəbibin aylarla, illərlə çəkdiyi zəhmət hədər getməmiş, bu il qəbul imtahanları verən məzunlar arasında rayonumuz üzrə ən yüksək bal toplayaraq Bakı Ali Neft məktəbinin neft-qaz mühəndisləri fakültəsinə qəbul olmuşdu.

Mirhəbib Seyidəliyevin 685 bal toplaması xəbərini eşidib sevinənlər çox olmuşdur. Onlardan biri də şəhər 2 saylı tam orta məktəbin direktoru Vəfa Tağıyeva olmuş və o, həmin an Mirhəbibə, onun valideynlərinə göz aydınlığı vermişdi.

Ən sevindirici hal odur ki, Mirhəbibin oxuduğu məktəbin XI a sinfinin şagirdlərinin əksəriyyəti qəbul imtahanlarında yetərincə bal toplamış, ali təhsil məktəblərinə qəbul olmuş və tələbə adına layiq görülmüşlər.

Mirhəbibi ən yüksək bal toplayıb ali məktəbə qəbul olması münasibətilə təbrik etmək üçün biz də onunla görüşdük və ürək sözlərini bildirməyi ondan xahiş etdik.

Mirhəbib Seyidəliyev çox danışmadı. Yalnız onu bildirdi ki, mən bütün ömrüm boyu bizə əziyyət çəkən müəllimlərə, xüsusilə məktəbimizin direktoru Vəfa xanıma minnətdar olacaq, onları heç vaxt unutmayacağam.

İ. Əliyev

Tələbə adın mübarək, Ülkər!

Ölkəmizdə ali və orta-ixtisas məktəblərinə tələbə qəbulu başa çatmaq üzrədir. Qəbul imtahanlarının birinci mərhələsinin yekunları rayonumuzun məzunları üçün də uğurlu olmuşdur. Ötən illərdən fərqli olaraq bu turda imtahanlardan yüksək bal toplayıb tələbə adını qazanan gənclərimiz daha çox olmuşdur. Belə gənclərdən biri də Ağstafa şəhər 2 saylı orta məktəbin müdavimi, XI a sinfinin şagirdi Həsənli Ülkər Məzahir qızıdır.

Başqa tələbə adını qazanan müdavimlər kimi, Ülkər Həsənlinin də sevincinin həddi-hüdudu yoxdur. Bu günlər onunla, anası Mətanət xanımla bir yerdə görüşüb söhbət etdik. Mətanət xanım söhbət zamanı ürəkdən gələn sevincini gizlədə bilmədi. Qızı Ülkər haqqında o qədər ürək dolusu danışdı ki, ana məhəbbətinin əvəzolunmaz bir varlıq olduğunun şahidi olduq.

Mətanət xanım qızı Ülkərin 1 yaşı olarkən onda fitri istedadın olduğunu hiss etmişdi. O, dedi ki, hələ Ülkərin 1-2 yaşı olarkən nənəsi Yetər körpə balamıza "Ay pipiyi qan xoruz" şerini danışarkən həmin şeri Ülkər də qırıq-qırıq təkrarlamış, başqa bir şeir söyləməyi nənəsindən xahiş etmişdi. Ülkərin 5 yaşı tamam olanda o, Əlifba kitabındakı bütün şeirləri əzbər söyləyərdi. Və elə buna görə də Mətanət xanım Ülkəri 5 yaşında Ağstafa şəhərindəki 2 saylı tam orta məktəbin 1-ci sinfinə qoydu.

Ülkər Həsənli özü haqqında danışmağı xoşlamasa da, ona verdiyimiz sualları cavablandırarkən bildirdi ki, orta məktəbin XI sinfini bitirərkən bütün fənlərdən əla qiymət almışdı. Ülkər ona dərs deyən müəllimlərdən daha çox danışdı. Dünyasını dəyişən ingilis dili müəllimi Tamara xanımın, Ülviyyə müəllimənin adını xüsusilə qeyd etdi. Tarix müəllimi Dilşad xanıma, dil-ədəbiyyat müəllimi Sevinc xanıma, sinif rəhbəri Gülcöhrə müəlliməyə dərin minnətdarlığını bildirdi.

Bəli, Ülkər bu gün həyatın yeni mərhələsinə qədəm qoyur. O, valideynlərinin, müəllim-lərinin ona çəkdikləri zəhməti layqincə doğruldaraq qəbul imtahanında 665 bal toplayaraq Azərbaycan Diplomatik Akademiyasına qəbul oldu.

Yeni dərs ili başlayanda Ülkər də həmin universitetin auditoriyalarına qədəm qoyacaq, tutduğu şərəfli yolu uğurla davam etdirəcəkdir.

Əziz Ülkər bala, səni oxucularımız adından ürəkdən təbrik edir və inanırıq ki, qəbul olduğun ali təhsil müəssisəsini də əla qiymətlərlə başa vuracaq, vətənimiz üçün layiqli kadr olacaqsan.

İ.Əliyev

Uşaqlar bizim gələcəyimizdir

Gələcəyimiz olan uşaqlara qayğı göstərmək, onların sağlam və gümrah böyümələrini təmin etmək dövlətimizin qarşısında duran ən mühüm məsələlərdən biridir. Hər yerdə olduğu kimi, mənim rəhbərlik etdiyim şəhər 4 saylı uşaq bağçası-körpələr evinin kollektivi, öz övladlarını bizə etibar edən valideynlər bunun tam şahidi olurlar. Belə ki, bağçamız hələ bir neçə il bundan əvvəl olduqca yararsız vəziyyətdə idi. Bağçamızda olan iş şəraiti rayon rəhbərliyini ciddi narahat etdi və dörd il bundan əvvəl bağçamızda əsaslı təmir işləri aparıldı.

Mən bu gün fərəhlə qeyd edə bilərəm ki, bizim bağçamız rayonda ən nümunəvi usaq tərbiyə müəssisələrindən biridir. Demək olar ki, bağçamızda uşaqların sağlam böyüməsi üçün hər cür şərait yaradılmışdır. İstər yataq otağı, yeməkxanası, uşaqlar üçün əyləncəli tədbirlər keçirilən otaqlar tələb olunan səviyyədə təşkil olunmuşdur. Məhz bütün bunların nəticəsidir ki, öz uşaqlarını bizə etibar edən valideynlər işimizdən olduqca razılıq edirlər. Mən bütün bunlara görə ilk öncə ölkə başçımız, möhtərəm prezidentimiz cənab İlham Əliyevə, Rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyevə kollektivimiz adından dərin minnətdarlığımı bildirirəm.

Artıq dörd ildir ki, biz yeni şəraitdə uşaqları tərbiyə edir, böyüdürük. Bizim üçün yaradılmış gözəl iş şəraiti tərbiyəçilərimizin, bütün işçilərimizin məsuliyyətini daha da artırmışdır. Kollektivimizdə çalışan bütün tərbiyəçilər öz işlərinin öhdəsindən layiqincə gəlirlər. Mən onlardan Dürdanə İsmayılovanın, Ceyran Dünyamalıyevanın, Lamiyə Əliyevanın və başqalarının adını böyük iftixarla çəkə bilərəm. Valideynlər onlardan, eləcə də bütün tərbiyəçilərdən olduqca razılıq edirlər.

Mən 12 ildən çoxdurdur ki, bu uşaq tərbiyə müəssisəsinə rəhbərlik edirəm. Ötən illərdə qazandığımız nailiyyətlər çox olmuşdur. Ən başlıcası isə tərbiyə etdiyimiz uşaqları məktəbə layiqincə hazırlamış, ölkəmizin gələcəyi üçün layiqli körpələr yetişdirmişik. Əminəm ki, kollektivimiz öz yaxşı işlərini bundan sonra da davam etdirəcək, bizə etibar olunan uşaqları sağlam və gümrah böyütmək üçün əllərindən gələni əsirgəmə-yəcəklər.

E. Dadaşova,
4 saylı uşaq bağçası-körpələr evinin direktoru

Milli qəhrəmanlarımız

İgid ölər, adı qalar

Əlimə qələm alıb bu məqaləni yazmağa başlayanda saatlarla fikirləşmiş, özümü bir anlığa çox da uzaq olmayan bir keçmişə qaytarmış, sovet imperiyası devriləndən sonra ölkəmizdə, rayonumuzda baş verən hadisələri bir anlığa kino lenti kimi gözümün önündə canlandırmışam. İlk öncə bu xoş günləri, firavan həyatımızı çox çətinliklə də olsa bizlərə bəxş edən ulu öndər Heydər Əliyevin misilsiz əməyini xatırlamış və onun uzaq görən siyasətinin qələbəsi üçün xidməti vəzifələrini ləyaqətlə yerinə yetirən, lazım gələrsə həyatlarını belə qurban verməyə hazır olan igid oğul və qızlarımızı yada salmışam. Belə qəhrəman oğullardan biri də həmyerlimiz, bu il 65 yaşı tamam olan Azərbaycanın Milli Qəhrəmanı Əjdər Xalıqverdi oğlu Babayevdir.

Əjdər Babayev 1950-ci il avqust ayının 26-da Qazax rayonunun Molla Cəfərli kəndində dünyaya göz açmış, sonralar bir müddət rayonumuzun Xətai kəndində yaşamış, Yenigün kənd orta məktəbini bitirdikdən sonra isə 1969-cu ildə hərbi xidmətə çağrılmışdı. O, hərbi xidməti borcunu yerinə yetirdikdən sonra Bakı şəhərində, Nərimanov rayon polis şöbəsində sıravi polis işçisi işləmişdi. Ə. Babayev elə həmin illərdə Sumqayıt Politexnik Texnikumunu bitirmiş və 1981-ci ildə Qazax rayon polis şöbəsinə göndərilmiş, ömrünün sonunadək həmin şöbənin Ağstafa bölməsində çalışmışdı.

Əjdər Babayev bütün ağstafalılardan fərqli olaraq mənə daha çox yaxın idi. Onunla bir küçədə yaşamış, xeyir-şər məclislərində bir stol arxasında əyləşmişik. Sakit təbitəli bir insan idi. Çox danışmağı, kiminsə söhbətinə müdaxilə etməyi xoşlamazdı. Həmişə həmsöhbət olduğu adamları dinləyər və sonra bircə kəlmə sözlə onlara cavab verərdi. Əjdərin bu xasiyyəti küçəmizdə yaşayanların hamısının diqqətini cəlb edir və elə buna görə də qonşularımız Əjdər Babayevə hörmətlə yanaşardı.

Əjdər Babayevin valideynləri Ermənistanın Krasnoselski rayonunun Ağbulaq kəndindən olublar. O, söhbət zamanı həmin yerləri tez-tez ürək ağrısı ilə xatırlayar və deyərdi ki, o torpaqlar tarixən bizim dədə-baba yurdumuz olub və mən inanıram ki, gec-tez biz həmin torpaqların sahibi olacağıq.

... İllər bir-birini çox sürətlə əvəz etdi. Və nəhayət XXI əsrin əvvəllərində tarix öz hökmünü verdi. Sovet imperiyasının təsiri altında yaşayan xalqlar ayağa qalxaraq öz müstəqillikləri uğrunda mübarizəyə başladılar. Elə keçən əsrin əvvəllərində öz müstəqilliyini tanımış və sonralar imperiya qüvvələrinin təsiri altına düşmüş Azərbaycan xalqı da ayağa qalxaraq öz müstəqilliyini bərpa etdi.

Belə bir çətin dövrdə dövlətçiliyimizə ləkə gətirmək ideyaları ilə yaşayan qüvvələr də tapıldı. Keçmiş Xüsusi Təyinatlı Polis Dəstəsinin törətdiyi cinayət hadisələri vətənini sevən, onun azadlığı, müstəqilliyi uğrunda mübarizə aparan hər bir kəsi hiddətləndirdi. Bu hadisələr rayonumuzun ərazisində özünü xüsusilə büruzə verdi. Həmin dəstənin bir qrup üzvü Qazax və Ağstafa rayon-larında dövlət orqanlarına hücum edərək hakimiyyəti ələ keçirmək istədilər. Bu yolverilməz hadisə ölkəmizin hər yerində olduğu kimi Ağstafada da dövlət çevrilişinə qəsd kimi qiymətlən-dirildi. Belə bir gərgin ərəfədə Azərbay-can xalqı ulu öndər Heydər Əliyevin ətrafında sıx birləşərək dövlət çevrilişinə cəhd edən qüvvələrə qarşı qətiyyətli tədbirlərin görülməsini tələb etdilər. Çox keçmədi ki, Azərbaycan müstəqilliyinə və dövlətçiliyinə qəsd edən qüvvələr öz layiqli cavablarını aldılar.

Dövlət çevrilişinin qarşısının alınmasında polis əməkdaşlarının, hərbi hissə qüvvələrinin göstərdikləri şücaət xalq tərəfindən yüksək qiymətləndirildi. Həmin dövrdə Ağstafa rayon polis şöbəsinin əməkdaşı Əjdər Babayev xidməti vəzifəsini yerinə yetirərkən qəhrəmancasına həlak oldu.

13 mart dövlət çevrilişinə cəhdinin qarşısının alınmasında göstərdiyi şücaətə görə Əjdər Xalıqverdi oğlu Babayev ulu öndər Heydər Əliyevin fərmanı ilə "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görüldü.

Bəli, Əjdər Babayevin dünyasını dəyişdiyi vaxtdan düz 25 il keçir. Hər yerdə olduğu kimi, Ağstafada da dövlətçiliyimizin qorunub saxlanılması, torpaqlarımızın bütövlüyü uğrundə gedən mübarizədə şəhid olan oğullarımızın xatirəsi həmişə yad edilir.

Bu gün Rayon polis şöbəsinin əməkdaşları, rayonun bütün ictimaiyyəti Əjdər Babayevin keçdiyi həyat yolunu, göstərdiyi qəhrəmanlığı böyük iftixarla xatırlayır, onun doğum gününü qeyd edirlər. Fərəh hissi ilə demək olar ki, milli qəhrəmanın göstərdiyi şücaət rayon rəhbərliyinin həmişə diqqət mərkəzində olmuş və bu gün də diqqət mərkəzində olaraq qalmaqdadır. Onun ailəsinə, yaxın qohumlarına həmişə xüsusi qayğı göstərilir, rayonun mötəbər məclislərində onların iştirakı təmin edilir.

Azərbaycanın Milli Qəhrəmanı Əjdər Babayev bu gün bizlərin arasında olmasa da, onun xatirəsi daim yad edilir. Neçə belə illər ötsə də, ağstafalılar elimizin, obamızın qəhrəman oğlunun xatirəsini əbədi yaşadacaqlar. El ağsaqqalları demişkən, igid ölər, adı qalar.

İbrahim Əliyev

Milli-mənəvi dəyərlərimizi qoruyaq

"Vətəndaşların Sosial Rifahının Gücləndirilməsinə Dəstək" İctimai Birliyi Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökümət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə "Milli-mənəvi və əxlaqi dəyərlərin gənclər arasında təbliği və təşviqi" adlı layihə həyata keçirməyə başlamışdır. Layihənin əsas məqsədi gənclər arasında mənəvi dəyər prinsiplərini formalaşdırmaq, genişləndirmək, aşılamaq və hərbi vətənpərvərlik ruhunda böyüməsinə və bu istiqamətdə əməli dəstək göstərmək üçün yardımçı olmaqdan ibarətdir.

Bu layihə çərçivəsində Azərbaycanın Milli Qəhrəmanlarının vətənimizin azadlığı, torpaqlarımızın bütövlüyü uğrunda apardıqları ölüm-dirim mübarizəsini gənc nəslə aşılamaqdan ötrü ilk addımlar atılmışdır. Bu məqsədlə Qazaxda və Ağstafada böyüyüb boya-başa çatmış üç nəfər Milli Qəhrəmanımız - Mərifət Nəsibov, Rafiq Alcanov və Şamoy Çobanovun erməni silahlı quldurlarına qarşı Qarabağ müharibəsində göstərdikləri şücaətlərdən bəhs edən sənədli-bədii film çəkilmişdir.

"Ölümə qənşər" adlı filmin çəkilişində Milli Qəhrəmanların ailə üzvlərinin, döyüş yoldaşlarının xatirələrindən, təəssüratlarından, onlar haqqında ürək sözlərindən istifadə olunmuşdur. Həmçinin ayrı-ayrı vaxtlarda çəkilmiş sənədli kadrlardan istifadə edilmişdir. Filmin çəkilişi Qazax, Ağstafa və Quba rayonlarında aparılmışdır.

Bu günlərdə Ağstafadakı "Yazıçılar evi"ndə "Ölümə qarşı" sənədli-bədii filminin ilk nümayişi keçirilmişdir. Rayonun ictimai-siyasi təşkilatlarının nümayəndələri, müharibə veteranları, ziyalılar, mədəniyyət və təhsil işçiləri, sərhəd qoşunlarının və daxili qoşunların əsgərləri filmin nümayişində iştirak etmişlər.

Nümayişdən sonra Rayon icra hakimiyyəti başçısının müavini Aydın Hacıyev, ziyalılardan Süleyman Mustafaoğlu, Gülgün Kərimov, Yaqub Məmmədov və başqaları film haqqında fikirlərini söyləmişlər.

"Vətəndaşların Sosial Rifahının Gücləndirilməsinə Dəstək" İctimai Birliyinin sədri, filmin çəkilişinə bilavasitə rəhbərlik edən Venera Əsgərova yeni layihənin həyata keçirilməsinə göstərdiyi köməyə görə rayon icra hakimiyyətinin rəhbərlərinə, rayon ictimaiyyətinə dərin minnətdarlığını bildirmişdir. O, Milli Qəhrəmanların həyatından bəhs edən belə filmlərin ardıcıllıqla çəkiləcəyini və gənc nəslə təqdim ediləcəyini bildirdi.

Kənd təsərrüfatı gəlirli sahəyə çevrilməlidir

2015-ci il ölkəmizdə kənd təsərrüfatı ili elan edilmişdir. Ölkə başçısı cənab İlham Əliyevin müvafiq sərəncamlarından aydın olur ki, ölkəmizdə qeyri-neft sektorunun, o cümlədən kənd təsərrüfatının inkişafı dövlət tərəfindən iqtisadi siyasətin prioritet istiqamətlərindən biri kimi müəyyən edilmiş və bununla əlaqədar ölkəmizdə, eləcə də rayonumuzda əsaslı tədbirlər görülmüşdür.

Artıq kənd təsərrüfatı ilinin yarıdan çoxu arxadan qalmışdır. Bu il rayonumuzda kənd təsərrüfatı sahəsində görülmüş işlər, əldə olunmuş nailiyyətlər, qarşıda duran vəzifələr barədə məlumat vermək üçün Rayon icra hakimiyyətinin sosial iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdir müavini Ramiz İmanovla görüşüb söhbət etdik. R.İmanov qəzetimiz üçün müsahibə verərək dedi:

- Ağstafa rayonunun iqtisadiyyatının əsasını demək olar ki, kənd təsərrüfatı təşkil edir. Hələ Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ilk dövrdə rayonumuzda bu sahənin inkişaf etdirilməsi üçün müəyyən işlər görülmüş, əhalinin ərzaq məhsulları ilə təmin edilməsi, kənd təsərrüfatının gəlirli sahəyə çevrilməsi üçün bir sıra tədbirlər həyata keçirilmişdir. Lakin sovet imperiyasının süqutundan sonra kənd təsərrüfatına diqqət göstərilməsi bir qədər zəifləmiş, iqtisadiyyatın əsasını təşkil edən sahələrdən biri olan üzümçülük ləğv edilmiş, əkinçilik və heyvandarlıq sahələrinə laqeyd münasibət göstərilmişdir.

Lakin bu gün böyük iftixarla qeyd etmək olar ki, ölkə başçısı cənab İlham Əliyevin diqqət və qayğı göstərdiyi ən mühüm sahələrdən biri də kənd təsərrüfatıdır. Rayonumuzda 21501 hektar əkin sahəsi mövcuddur. 2015-ci ilin məhsulu üçün bu il rayonumuzda 7714 hektar taxıl səpilmiş və bundan 5624 hektarı buğda, 2090 hektarı arpa sahəsi olmuşdur.

Mövcud taxıl sahələrinin optimal müddətdə biçilməsini təmin etmək üçün rayonumuza müasir tələblərə cavab verən texnikalar gətirilmiş və həmin texnikaların qorunub saxlanması üçün xüsusi sahələr ayrılmışdır. Hazırda rayonda 15 ədəd müasir tələblərə cavab verən taxılyığan kombayn və 3 ədəd SK-5 markalı kombayn mövcuddur. Ötən illərdən fərqli olaraq 2014-cü ildə Ağstafa filialına 5 və Ağstafa-"Aqroservis" MMC-nə 2 ədəd kombayn gətirilmişdir ki, bu da taxıl yığımının optimal müddətdə başa çatdırılmasına lazımi şərait yaradır.

Ağstafa- "Aqroservis" MMC-nin fəaliyyəti qərb regionunda kənd təsərrüfatının inkişafı sahəsində daha böyük uğur əldə etməyə imkan yaradır. Bu texnikaların rayonumuza gətirilməsi əkinçilik mədəniyyətinin yüksəlməsinə daha böyük şərait yaratmışdır. Təkcə onu qeyd etmək olar ki, kartof bitkisinin səpinindən tutmuş, məhsul yığımına kimi bütün aqrotexniki tədbirlər mexanikləşdirilmişdi. Qeyd etdiyim MMC-lərdə mövcud olan texnikaların gücü ilə bitkilərin becərilməsindən tutmuş, son yığımadək keçirilən əməliyyatların bir neçəsini həmin texnikaların gücü ilə yerinə yetirmək mümkündür. Belə ki, bir gedişə sahələrin şumlanmasını, malalanmasını və toxumun səpilməsini yerinə yetirmək mümkündür. Bütün bunların nəticəsidir ki, cari mövsümdə rayonda taxıl biçini kompaniyası uğurla başa çatmışdır. Taxıl sahələrindən 22440,9 ton məhsul yığılmışdır ki, bu da əvvəlki illərdən xeyli çoxdur. Hər hektardan götürülən məhsul əvvəlki ildəkindən 1,1 sentner çox olmaqla 29,1 sentner təşkil etmişdir. Buğda sahələrindən 17153,3 ton, arpa sahələrindən 5287,7 ton məhsul yığılmışdır. Hər iki rəqəmin göstəricisi əvvəlki illərdən çox təşkil etmişdi. Rayonda kənd təsərrüfatı mütəxəssislərinin vaxtlı-vaxtında maarifləndirilməsi nəticəsində bitkilərin növbəli əkinin təşkil edilməsi işində də bir sıra sevindirici hallar əldə olunmuşdu.

Rayonda üzümçülüyün inkişaf etdirilməsinə də xüsusi qayğı göstərilmiş, yeni növ süfrə sortlarının rayonumuza gətirilməsi təşkil edilmişdir. Təkcə onu qeyd etmək istərdim ki, dünyanın bir çox ölkələrindən, eləcə də Fransadan gətirilən süfrə növü olan üzüm tingləri fermerlərə verilmiş və həmin tinglərin əkilib-becərilməsinə xüsusi qayğı göstərilmişdir. Təkcə Kolxəlfəli kəndində pay torpaq sahələrində 67 hektar üzüm bağı salınmışdı.

Qeyd etmək istərdim ki, rayonumuzun ərazisindən Kür və Ağstafa çayları keçir. Yay mövsümü dövründə əkin sahələrinin suvarılmasında bir sıra problemlər yaranır. Rayon rəhbərliyi həmin problemlərin aradan qaldırılması üçün qeyd etdiyim çayların sularından istifadə edilməsi üçün lazımi tədbirlər planı hazırlamış və bu tədbirlərin həyata keçirilməsinə başlanılmışdır.

Düz Qışlaq, Qarahəsənli, Xılxına, Pirli kəndlərinin 3310 hektar əkin sahələrini suvaran 41,49 kilometr daxili suvarma arxları yenidən qurularaq beton üzlük qoyulmuş və 581 ədəd hidrotexniki qurğular quraşdırılmışdır.

Dağkəsəmən kənd sakinlərinin narahatlığına səbəb olan "Acıdərə"dən gələn sel sularının qarşısını almaq üçün Rayon icra hakimiyyəti başçısının səyi nəticəsində həmin ərazidə su bəndinin tikintisinə başlanıldı və bu iş artıq başa çatmaq üzrədir. Çox sevindirici haldır ki, həmin bənddə yığılan su ilə Dağkəsəmən və qonşu kəndlərin əkin sahələrini suvarmaq mümkün olacaqdır.

Eləcə də Ağgöl, Böyük-Kəsik, Sadıxlı, Muğanlı kəndlərindəki torpaq sahələrini suvarmaq üçün mövcud olan kanal təmir olunmuş, həmin kanalın qolları yeni qaydada inşa olunmuş, 46,85 kilometr daxili suvarma arxlarına beton üzlük qoyulmuş və 482 ədəd hidrotexniki qurğular quraşdırılmışdır.

Rayonda heyvandarlığın inkişaf etdirilməsi daim diqqət mərkəzində saxlanılmışdı. Ümumən götürəndə 2015-ci ildə rayonda iribuynuzlu mal-qaranın, xırda buynuzlu davarların sayı xeyli artmışdır. Artıq rayonumuzda iribuynuzlu mal-qara saxlayan ailələrin sayı xeyli artmışdır. Yetişdirilmiş mal-qaranın kəsilməsini təmin etmək üçün sanitar normaya uyğun kəsim məntəqələrinin olmaması narahatlıq doğuran məsələ kimi qarşımızda durmaqdadır. Yaxın gələcəkdə bu problemin aradan qaldırılması üçün lazımi tədbirlərin görülməsi nəzərdə tutulur.

Rayonda arıçılığın inkişaf etdirilməsinə də xüsusi qayğı göstərilir. Bu gün rayonda mövcud olan 2010 ədəd arı ailəsindən əvvəlki illərdəkindən çox məhsul istehsal olunur. Lakin bu il havaların olduqca quraqlıq keçməsi bu sahəyə öz təsirini göstərmişdi.

2015-ci ilin-kənd təsərrüfatı ilinin başa çatmasına xeyli vaxt vardır. Biz mütəmadi olaraq kənd təsərrüfatının bütün sahələrindəki vəziyyəti Rayon icra hakimiyyəti başçısı yanında keçirən şura iclaslarında geniş müzakirə edir, mövcud nöqsanların aradan qaldırılması üçün tədbirlər görürük. Mən əminəm ki, rayonumuzda bu kimi tədbirlər bundan sonra da davam etdiriləcək, rayonda kənd təsərrüfatının daha da inkişaf etdirilməsinə nail olacağıq.

İşin sürəti artır

Rayonun sosial-mədəni həyatında ən mühüm əhəmiyyət kəsb edəcək tikintilərdən biri də

respublikada analoqu olmayan Musiqi və İncəsənət mərkəzinin inşa edilməsidir. Bu nəhəng tikintinin təməlinin qoyulmasından bir neçə ay keçsə də, ötən müddətdə obyektin tikintisində xeyli iş görülmüşdür.

Rayon ictimaiyyətinin böyük marağına səbəb olan bu tikintidə gedən işlərin vəziyyəti barədə oxucularımıza müntəzəm məlumat verməyi özümüzə borc bilmiş və qəzetimizin əvvəlki saylarında görülmüş işlər barədə onları məlumatlandırmışıq. Bu gün böyük iftixarla demək olar ki, mərkəzin tikintisində gedən işlərin vəziyyəti ürəkaçandır.

Rayon icra hakimiyyətinin Tikinti və Memarlıq şöbəsindən əməkdaşımıza bildirdilər ki, mərkəzdə beton və hörgü işləri artıq tam başa çatdırılmışdır. Mərkəzin akt zalının metal fermaları quraşdırılmış və həmin fermaların üstü yüngül konstruksiyalı dam örtüyü ilə örtülmüşdür.

Hazırda binanın daxilində tamamlama işlərinə başlanılmışdır. Bununla yanaşı, binanın xarici fasadında layihədə nəzərdə tutulan bəzək işlərinin aparılmasına da başlanılmışdır.

İnşaatçılarımız Musiqi və incəsənət mərkəzinin nəzərdə tutulan vaxtda istifadəyə verilməsini təmin etmək üçün bütün qüvvələrini səfərbər etmişlər. Görülən işlər onu deməyə əsas verir ki, inşaatçılar öz vəzifələrini layiqincə yerinə yetirəcək, rayon ictimaiyyətinin səbirsizliklə gözlədikləri günü yaxınlaşdıracaqlar.

Hazırda binanın tikintisində iş sürətlə davam edir.

Rabitə

Günün tələbi səviyyəsində

Cari ilin 7 ayında Ağstafa rabitəçiləri əhaliyə 425 min manatlıq rabitə xidməti göstərmişlər. Dövlət büdcəsinə 99400 manat pul ödənilmişdir. DSMF-na 34500 manat pul köçürülmüşdür. Yeddi ayda əvvəlki illərə nisbətən xidmətin həcmi artmışdır. Bu gün abonentlərin sayı 7856 nəfərə çatmışdır.

Rabitəçilərimiz istehsalat göstəricilərini artırmaq üçün daxili imkanlardan səmərəli istifadə etməyə çalışırlar. Onlar qazandıqları uğurlardan, müvəffəqiyyətlərdən heç vaxt arxayınlaşmırlar. Əhaliyə nümunəvi rabitə xidməti göstərmək üçün öz üzərlərində çalışırlar. Bu da səbəbsiz deyil. Bu gün rabitə elə inkişaf pilləsindədir ki, daim onu daha da sürətləndirmək lazımdır.

Belə inkişaf xüsusiyyəti ulu öndərimiz Heydər Əliyevin hakimiyyətə ikinci dəfə gəlişindən sonra başlamışdır. Məhz onun diqqət və qayğısı sayəsində milli rabitənin dirçəlişində ikinci mərhələ dövrünün başlanğıcını görmək olar. Əsl dönüş ilində elektron tipli müasir ATS-lər qurulub istifadəyə verilmişdir. Bu inkişaf tempi də rayonumuzda da öz əksini tapmışdır. Telefon istifadəçilərinin sayı ildən-ilə artmışdır.

Əhaliyə telefon xidməti ilə yanaşı internet xidməti də günün tələbi səviyyəsinə çatdırılmışdır. Qovşağımızın imkanı o dərəcəyə yüksəldilmişdir ki, hər bir abonentin evinə internet verə bilər. Cari ilin arxada qalan aylarında rayonun Dağkəsəmən, Qırlı, Aşağı Kəsəmən, Köçəsgər, Aşağı Göycəli, Yuxarı Göycəli, Qıraq Kəsəmən, o cümlədən rayon mərkəzində avadanlıqlar quraşdırılaraq internetdən istifadə etmək üçün yaxşı şərait yaradılmışdır.

Dövlətimizin iqtisadi gücü artdıqca rabitə sahəsində də yeniliklər, yeni danışıq formaları meydana gəlir. Otuz-qırx il bundan əvvəl telefondan necə çətinliklə istifadə olunduğu yadımızdan çıxmayıb. Ancaq bu gün hər bir kənddə rabitə xidməti normal işləyir və internet xidmətindən istifadə edərək canlı danışıqlar aparılır. Hazırda 2465 abonent internetdən çox asanlıqla istifadə edir. Cari ilin yeddi ayında 750 abonentə internet xidməti vermişik, 151 nəfərə isə telefon çəkmişik. Yeri gəlmişkən, mühüm bir xəbəri əhaliyə çatdırım ki, telefon və internet üçün müraciət edən hər bir şəxsə lap qısa bir müddətdə istədiyini yerinə yetirə bilərik.

Daha bir vacib məsələni də əhalinin nəzərinə çatdırmaq yerinə düşər. Hazırda elə bir gözəl və imkanlı şərait yaranıb ki, rayon mərkəzində hər hansı bir evə Bakı telefonu çəkmək mümkündür. Respublikadaxili bütün zənglər-həm girişi, həm də çıxışı pulsuzdur. Abunə pulu ödəməklə istənilən qədər danışıq aparmaq olar.

Qarşıdan parlament seçkiləri gəlir. Bu mühüm kampaniyaya da ciddi hazırlaşırıq. Seçki məntəqə-lərinin telefonlaşması və görüntülü nəzarətlərin olması üçün bütün imkanlardan maksimum istifadə edəcəyik.

M. Mahmudov,
Ağstafa telekommunikasiya qovşağının rəisi

Tikinti sahəsi inkişaf edir

Yeni istehsal və sosial təyinatlı obyektlərinin tikilib işə salınması ölkədə təkrar istehsalın, məşğulluğun təmin olunmasında, iqtisadiyyatın güclənməsində, xidmət mədəniyyətinin layiqli səviyyəyə çatdırılmasında mühüm rol oynayır. 2015-ci ilin yanvar-iyun aylarında Ağstafa rayonunda iqtisadi və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələri hesabına müəssisə və təşkilatlar tərəfindən 9772.0 min manat əsas kapitala investisiya yönəldilmiş, bunun da 87.8 faizi tikinti quraşdırma işlərinin yerinə yetirilməsinə sərf edilmişdir. Əvvəlki ilin eyni dövrü ilə müqayisədə əsas kapitala yönəldilmiş vəsaitin həcmi 2.5 faiz, tikinti quraşdırma işlərinə sərf edilmiş vəsaitin həcmi 2.2 faiz artmışdır.

Əsas kapitala yönəldilmiş investisiyanın 75.5 faizi dövlət mülkiyyətində olan müəssisələrin, 24.5 faizi qeyri dövlət müəssisələrin payına düşür. Əsas kapitala yönəldilmiş vəsaitin 59.5 faizi istehsal təyinatlı, 40.5 faizi qeyri istehsal təyinatlı obyektlərin inşasında istifadə edilmişdir. Əsas kapitala yönəldilmiş investisiyanın 13.4 faizi kənd təsərrüfatına, 40.5 faizi tikintiyə, 7.2 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsinə, 38.5 faizi sənaye sahəsinə, 0.4 faizi informasiya və rabitə sahələrinin inkişafına sərf edilmişdir.

Tikinti müəssisələri tərəfindən 2015-ci ilin yanvar-iyun aylarında yerinə yetirilmiş 10368.7 min manat həcmində inşaat işlərinin 14.5 faiz yeni tikinti, 84.5 faiz cari təmir işləri, 1.0 faiz sair işlər təşkil etmişdir. Yerinə yetirilmiş ümumi tikinti işlərinin 206.7 min manatını dövlət mülkiyyətli tikinti müəssisələri, 10186.0 min manatını qeyri dövlət tikinti müəssisələri həyata keçirmişlər və onlar tərəfindən yerinə yetirilmiş işlərin, xidmətlərin həcmi 2014-cü ilin altı ayına nisbətən 76.4 faiz artmışdır.

Ağstafa şəhərində uşaq musiqi mərkəzinin və rayon mədəniyyət evinin tikintisinin başa çatdırılması rayonun mədəni həyatının inkaşına sanballı töhfə verəcəkdir. Rayonun kəndlərində suvarma kanallarının beton üzlüklərlə yenidən qurulması işlərinin davam etdirilməsi kənd təsərrüfatı məhsullarının istehsalının daha məhsuldar təşkilinə imkan verəcəkdir.

Aynur Kərimova,
Ağstafa rayon Statistika İdarəsinin iqtisadçısı

Mini futbol meydançası hazırlanır

Rayonda yeniyetmə və gənclərin asudə vaxtlarının səmərəli keçirilməsi üçün gənclər və idman idarəsi vaxtaşırı olaraq müxtəlif tədbirlər həyata keçirir. Hətta bu tədbirlərdə qonşu rayonun sakinləri də yaxından iştirak edir, günü mənalı başa vururlar.

İdarə tərəfindən müxtəlif idman növlərinin inkişaf etdirilməsi də diqqətdə saxlanılır. Bu istiqamətdə futbol oyununa daha çox önəm verilir. Yeniyetmə və gənclərin müntəzəm fəaliyyəti üçün idarə yeni süni örtüklü mini futbol meydançasının inşasına başlamış və onu tezliklə idmansevərlərin ixtiyarına verməyə səy göstərir.

Mini futbol meydançasının sahəsi tələbata cavab verən həcmdədir. Meydançanın ətrafı 5 metr hündürlüyündə setka divarla hasarlanmışdır. Süni örtüklü meydançanın döşəməsi hazır vəziyyətə gətirilmişdir. Yaxın günlərdə burada idmançıların nəfəsi duyulacaq, meydança gənc idmansevərlərin ixtiyarına veriləcəkdir.

Poeziya səhifəsi

Doğma Ağstafam mənim

Torpağına canım dedim,
Sularına qanım dedim,
Son pənahım, son ümidim,
Düz ilqarım, vəfam mənim-
Doğma Ağstafam mənim.

Gəzdim diyar, gəzdim oymaq,
Nə lazımdır seçiv-saymaq,
Nə xoş olur səni duymaq,
Sən ən gözəl səfam mənim-
Doğma Ağstafam mənim.

Gülül dağda qoşa çinar,
Qələmçədə min sirrin var,
Kəsəmində qəhrəmanlar,
Qədim Oğuz tayfam mənim-
Doğma Ağstafam mənim.

Ceyrançöldə quzu mələr,
Ucsuz-bucaqsızdı çöllər,
İsrafil ağa, Kərəmlər,
İgid olub babam mənim-
Doğma Ağstafam mənim.

Köçəsgərdən Haça dağın,
Poylu kənddən Kür qırağın,
Qoy Mehmandan xoş sorağın
Gəlsin, isti yuvam mənim,
Doğma Ağstafam mənim.

Eynallıdan Vurğun kəndə,
Keçən olmaz yorğun kəndə,
Ata yurdum Göycəlidə,
Tatlıda ab-havam mənim.
Doğma Ağstafam mənim.

Səfalıdı Kotan dağı,
Hər bir guşən cənnət bağı,
Həsənsulu Hacı Tağı
Dursa olmaz qadam mənim.
Doğma Ağstafam mənim.

İsa, Nəriman bir almaz,
Hüseyn Arif, Həmid Abbas,
Eyvaz, Nüsrət...Cığatel, yaz,
Şair yurdum-yuvam mənim-
Doğma Ağstafam mənim.

Ciğatel İsaqızı

Qocalmışam

Ürək-dirək verin mənə,
Deyən daha qocalmışam,
Bir az kömək edin yenə,
Deyən daha qocalmışam.

Yetmiş tutub əlimizdən,
Oynadıbdı yerimizdən,
Söz tökülür dilimizdən,
Deyən daha qocalmışam.

Ömrü keçirmişəm hədər,
Duyammıram zaman qədər,
Sonuncudu haqqa səfər,
Deyən daha qocalmışam.

Onsuz yaş görür işini,
Əlimdən alıb huşumu,
Hazırlayıb son köçümü,
Deyən daha qocalmışam.

Vaqif olub kövrək baxış,
Onu da gözləyir yoxuş,
İstəmir təmtəraq, alqış,
Deyən daha qocalmışam.

Vaqif Əli

İtirmə

Vicdan yuva qurmaz daş ürəklərdə,
Sevgidən xəbərsiz boş ürəklərdə,
Kinli, mərhəmətsiz yaş ürəklərdə,
Ağıltək dövləti, varı itirmə.

Kəsmə ümidini Ulu Tanrıdan,
Yaratdığın əyməz Ulu Yaradan,
Dostların çıxsa da bir-bir aradan,
Qoru mənliyini barı itirmə.

Cibin boş olsa da, vüqarın varsa,
İsmətli, istəkli bir yarın varsa,
Cəsarət deyilən hasarın varsa,
Namusu, qeyrəti, arı itirmə.

Nəriman Mehdixanlı

Gizlənmişəm

Payızın kölgəsində
Qış olub gizlənmişəm,
Yarpaqlar arasında
Quş olub gizlənmişəm.

Gəlmişəm ki, qəm yeyəm,
Nə bilmişəm cəm deyəm?
Qara gözlərindəyəm,
Yaş olub gizlənmişəm.

Göz yaşıyam bulaqda,
Solmuşam bir budaqda,
Mən burdayam, bu dağda
Daş olub gizlənmişəm.

Unutdum səni

Hönkürüb dənizlərə
Axıb unutdum səni,
Gözümdəki gözlərə
Baxıb unutdum səni.

Baş götür, baş götür qaç,
Unut, çiçəklən, gül aç,
Kədəri başıma tac
Taxıb unutdum səni.

Alışdı köz içimdə,
Qaldı bir söz içimdə,
Özümü öz içimdə
Yaxıb unutdum səni.

Sevinc Yunuslu

Olmaz

Tanımamış, sınamamış, bilməmiş,
Hər adamla dostluq eyləmək olmaz,
Vaxtında düz deyib müdrik babalar,
Sirri hər yetənə söyləmək olmaz.

Biz də nə söyləsək düşünək bir an,
Bir könül talanıb olmasın viran,
Sözlə ara vurub hər ara vuran,
Söz ki, dildən çıxdı, əyləmək olmaz.

Sən dostunu sına dara düşəndə,
Tamaha baş əymə pay bölüşəndə,
Sən xəsisllik eylə söz gərdişində,
Sözü çox uzatmaq, teyləmək olmaz.

Ay Usta, darıxma sən tək qalanda,
Dostlara arxalan yol-iz salanda,
Çox da qürrələnmə zəfər çalanda,
Zəfəri saqqıztək çeynəmək olmaz.

Usta Qafar

Nənəm

Hər kəlməyə dinməyir,
Niyə danışmır nənəm?
Bəlkə də zəmanədən
Küsüb, barışmır nənəm.

Saçlarına yağıb qar,
Kim bilir nə dərdi var,
Qəlbidir sirrinə yar,
Daha qarışmır nənəm.

İlləri yada salıb,
Hərdən naümid qalıb,
Dərin xəyala dalıb,
Evə sığışmır nənəm.

Çox dərdə sinə gərir,
Özünü tox göstərir,
Nə yersiz sual verir,
Nə də soruşmur nənəm.

Aytacınla gülürsən,
Kədərimi silirsən,
Qəmli durmaq, bilirsən,
Sənə yaraşmır, nənəm!

Aytac Allahverdiyeva

Karıma gəlmir

Yaşamaq həvəsi bizə lazımdı,
Cığırın taleyi izə lazımdı,
Yerimək, yüyürmək dizə lazımdı,
Bax, o da karıma gəlmir ki, gəlmir.

Düz-düzə möhtacsa düz olmur axı,
Yüzü arzularsan, yüz olmur axı,
Üzlüdə, üzsüzdə üz olmur axı,
Bax, o da karıma gəlmir ki, gəlmir.

Çəkirik, İlahi, nəyin dərdini,
Kəsək daşın, kasıb bəyin dərdini,
Özümə dərd etdim səyin dərdini,
Bax, o da karıma gəlmir ki, gəlmir.

Həmidoğlu, dünya gözəl, söz gözəl,
Atəş gözəl, yanğı gözəl, köz gözəl,
Tapa bilsən səbir gözəl, döz gözəl,
Bax, o da karıma gəlmir ki, gəlmir.

Qurban Həmidoğlu





Elə düşün, elə daşın...

Atam oğlu!
Babalardan miras qalmış
adətləri itiririk,
Bəyənməyib babamızın
heybəsini, xurcununu,
Onun-bunun çantasını götürürük.
Niyə bizə yad olubdu uzun geyən,
Dəbdəbələr arxasınca sürünməyən
Heç davanı görünməyən
Halal-hümmət öz nənəmiz?!
Niyə bizə gülünc gəlir
Min-min illik adətimiz, ənənəmiz?!
Solub gedir baxçamızda güllübaxçalar,
Dadlandırıb ağızları,
Altı bəzək,
üstü bəzək
yad qızları.
Laxladırıq dədəmizin qapısını,
Boynumuza dolayandan
Avropanın çatısını.
Məgər bizim öz çatımız çürükləyib?
Məgər babam öz atını
Başqasının kəndiriylə hörükləyib?!
Atam oğlu!
Heç atası bilinməyən
yada da bax
özünə də,
Çata bilməz,
tay da gəlməz
Heç tozuna-izinə də!
Əqidəndə, amalında
Sən ondan da qüdrətlisən,
Sən ondan da qeyrətlisən.
Elə düşün,
elə daşın,
Yer qalmasın
təhriklərə, öyrətməyə.
Elə et ki,
elə et ki, baban səni yaraşdırsın
Öz yanında dəfn etməyə...

Məhəmməd Mahmudlu

“Qara kəmər”li qız

Mədinə Sadıqovanın cəmi 14 yaşı var. Ancaq körpələyindən idmana böyük maraq göstərən bu çəlimsiz qız keçən ildən “Qara kəmər” sahibidir. Respublikamızda və respublikadan kənarda keçirdiyi karate-do yarışlarında əldə etdiyi nailiyyətlər bu yüksək mükafatı ona qazandırmışdır.



O, 2001-ci ildə Gəncə şəhərində hərbi qulluqçu ailəsində doğulmuşdur. Atası Vasif müstəqil dövlətimizin milli ordusunda kapitan rütbəsi ilə zabit kimi xidmət edirdi. Bir yerdə durub-dincəlməyən, rahatlıq nə olduğunu bilməyən dəcəl qızı Mədinəni də körpəlikdən atası sövq etmişdi karateyə. O, vaxt tapdıqca qız balasının əlindən tutub idman zallarına aparır, məşqçilərlə söhbət edirdi. Mədinədəki cəsarət, çeviklik və cəldlik məşqçilərin diqqətini cəlb etmiş və bu balaca qızla məşğul olmağa başlamışdılar. Atası Vasif bundan fərəhlənir, qızını adlı-sanlı karateçi görmək arzusu ilə yaşayırdı.

Lakin bu səadət Mədinənin atasına qismət olmadı. Mədinə ilk uğurlu addımlarını atmağa başlayanda tale bu qızcığazı ağız bir fəlakətlə üz-üzə qoydu. Kapitan Vasif Sadıqov mürəkkəb bir kəşfiyyat əməliyyatını yerinə yetirərkən düşmən gülləsinə tuş gəldi, torpaqlarımızın bütövlüyü uğrunda şəhid oldu.

Həyatın bu ağır sınağından sonra Mədinə anası və bacı-qardaşı ilə doğma Aşağı Kəsəmən kəndinə köçdü. Şəhər mühitindən ayrılsa da atasının qəlbinə fərəh, ürəyinə sevinc hissi gətirən karate idmanından ayrılmadı. Ağstafa şəhərində fəaliyyət göstərən məktəbində məşqləri davam etdirdi. İllər, aylar bir-birini əvəz etdikcə Mədinə də idman sahəsindəki uğurlar salnaməsinə yeni səhifələr yazırdı. Necə deyərlər, yeniyetmə bir qız uşağının mötəbər yarışlarda qazandığı qələbələr idmançıları da, məşqçiləri də heyran qoyurdu.

Budur, Mədinənin karate döyüşlərində qazandığı uğurlar salnaməsinin şanlı səhifələrini biz də vərəqləyirik. 2012-ci ildə Ukraynanın Xarkov şəhərində 10-12 yaşlı uşaqlar arasında keçirilən beynəlxalq turnirdə üçüncü yer tutur. Bunun ardınca Belorusiyanın Minsk şəhərində keçirilən yarışda birinci yerə sahib olur. Bir il sonra-2013-cü ildə isə Türkiyədə uşaqlar arasında dünya birinciliyində ən yüksək pilləyə qalxır. Həmin il Azərbaycanda təşkil olunan karate üzrə respublika çempionatında Mədinə Sadıqova bütün rəqiblərinə qalib gələrək mütləq çempion adını qazanır. Bu möhtəşəm qələbəyə görə 12 yaşlı idmançı karate üzrə respublika yığma komandasına üzv qəbul olunur.

M.Sadıqovanın idman uğurları bununla bitmir. 2014-cü ildə Bakıda keçirilən beynəlxalq karate turnirində daha böyük qələbələrə imza ataraq “Qara kəmər”ə sahib olur. Bu yüksək mükafat balaca Mədinənin söhrətini daha da artırır. Bundan sonra Bakıda, Konyada, Batumidə və başqa şəhərlərdə keçirilən mötəbər turnirlərdə də sevindirici, ürəkaçan qələbələrə imza atır. Onun hər bir çıxışı, hər bir qələbəsi Azərbaycanımızın idman tarixinə, karateçilərimizin qələbə salnamasinə yeni səhifələr yazır.

14 yaşlı “Qara kəmər” sahibinin qazandığı misilsiz uğurlarda Respublika Milli Karate Federasiyasının yeniyetmələrdən ibarət yığma komandasının baş məşqçisi Şahin Xudaverdiyevin və onun köməkçisi Seymur Xudaverdiyevin əvəzsiz xidmətləri vardır. Azərbaycan Milli Karate Federasiyasının Ağstafa üzrə nümayəndəsi Namiq Həsənovun da Mədinənin bacarıqlı bir idmançı kimi yetişməsində xüsusi rolu vardır.

Gənc idmançı Mədinə Sadıqova bu il Aşağı Kəsəmən kənd orta məktəbinin IX sinfində parta arxasında əyləşəcəkdir. Əminik ki, o, təhsil almaqla yanaşı idman yarışlarında da öz sözünü deyəcək, qazandığı uğurların üstünə yeni uğurlar gətirəcək, respublikamızın idman şərəfini daha yüksəklərə qaldıracaqdır.

F. Heydərli

S.M.Batıyev



Rayonun tanınmış kənd təsərrüfatı mütəxəssisi Səməd Mansır oğlu Batıyev 76 yaşında vəfat etmişdi.

S.M. Batıyev 1939-cu ildə Yenigün kəndində anadan olmuş, həmin kənddə orta təhsil aldıqdan sonra Qazax Kənd Təsərrüfatı texnikumuna daxil olmuş və həmin təhsil müəssisəsini qırmızı diplomla bitirdikdən sonra rayonun Damazlıq birliyində əmək fəaliyyətinə başlamışdı.

S.M. Batıyev sonralar qiyabi yolla Azərbaycan Xalq Təsərrüfatı institutunda təhsilini davam etdirmiş, 1965-ci ildə həmin institutu müvəffəqiyyətlə bitirdikdən sonra yaşadığı kənddəki Ağamalıoğlu adına və Poylu kəndindəki sovxozlarda ixtisası üzrə baş zootexnik vəzifəsində işləmişdi. 1985-ci ildə ona etimad göstərilərək Aşağı Kəsəmən kəndində yerləşən təsərrüfata direktor vəzifəsinə təyin edilmişdi. 6 il həmin vəzifədə işləyən S.Batıyev 1991-ci ildə Ağstafa Yağ-Süd zavodunda direktor vəzifəsində çalışmış və 1993-cü ildən sovxozlar ləğv olunanadək Aşağı Kəsəməndəki sovxozda direktor vəzifəsində işləmişdi.

S. Batıyevin işlədiyi dövrdə rayonda kənd təsərrüfatının inkişaf etdirilməsində yaxşı xidmətləri olmuşdu. Təcrübəli mütəxəssis rayonda heyvandarlıq sahəsində yüksək nəticələrin əldə olunması üçün öz dəyərli məsləhətlərini əsirgəməmiş və bütün bunların nəticəsi olaraq işlədiyi sovxozda və qonşu təsərrüfatlarda ət, süd istehsalında yüksək nailiyyətlər əldə olunmuşdu.

S. Batıyev bacarıqlı təsərrüfat rəhbəri olmaqla yanaşı, həm də nümunəvi ailə başçısı idi. Onun tərbiyə etdiyi övladların hamısı ali təhsil almışlar. S. Batıyevin oğlu Seymur bu gün rayonun polis şöbəsində polis zabiti, qızı Samirə Qaçaq Kərəm kənd orta məktəbində müəllim, oğlu Mansır, qızı Dilarə isə Bakıda və Türkiyədə hörmətli mütəxəssislər kimi rayonumuzu təmsil edirlər.

S. Batıyev rayonun ictimaiyyəti arasında nüfuzlu, sözün düzünü deyən, haqqı, ədaləti müdafiə edən bir insan kimi böyük nüfuz qazanmışdır. S. Batıyev dünyasını dəyişsə də, onun xatirəsi yaxın dostlarının, tanışlarının, yaxın qohumlarının qəlbində əbədi yaşayacaqdır.

Fövqəladə Hallar Nazirliyinin əhaliyə müraciəti

Son illər respublika ərazisində havanın isti və quraq keçməsi nəticəsində biçilmiş taxıl, otlaq, kol-kos sahələrində, habelə, meşə massivlərində müxtəlif miqyasılı yanğınlar baş verir. Lakin aparılan araşdırmalar bu yanğınların baş verməsində insanların ehtiyatsızlığının əsas səbəblərdən biri olduğunu üzə çıxarımışlar.

Yuxarıda qeyd olunanları, həmçinin yanğınların milli sərvətimiz olan meşələrimizə, flora və faunaya törətdiyi təhlükəni, dövlət büdcəsinə vurduğu ziyanı, ən əsası isə insan həyatına yaratdığı riski nəzərə alaraq, Fövqəladə Hallar Nazirliyi təbiətdə istirahət edən insanlardan odla ehtiyatlı davranmağı, tam söndürülməmiş kibrit dənəsini, siqaret kötüyünü, benzin və başqa yanar mayelərin hopduğu parça və digər materialları ətrafa atmamağı, nəzərdə tutulmamış ərazidə və lazımi təhlükəsizlik tədbirləri görülmədən ocaq qalamamağı, uşaqları nəzarətsiz qoymamağı, kənd təsərrüfatı texnikası ilə işləyən vətəndaşlardan isə yanğın təhlükəsizliyi qaydalarına ciddi riayət etməyi xahiş edir.

Yanğın baş verdikdə və ya hər hansı yanğın təhlükəsi hiss etdikdə nazirliyin “112” qaynar xəttinə zəng vurmağınız xahiş olunur.

Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Gəncə Regional Mərkəzi DYNX-nin Gəncə Regional DYNİ

Bildiriş-məlumat

Hörmətli vergi ödəyicisi!

Fəaliyyətiniz zamanı vergi məsələləri ilə bağlı qarşılaşdığınız problemlələ və vergi orqanları əməkdaşlarının qanunazidd hərəkətləri ilə rastlaşdığınız halda aşağıdakı ünvanlara müraciət edə bilərsiniz:

Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az <http://www.taxes.gov.az>)

“Müraciətlər” bölməsinin “Onlayn müraciətlər” altbölməsinə

1. “Vergilər nazirinə məktub yaz”

http: //www.taxes.gov.az <http://www.taxes.gov.az> /vn/mektub/

2. “Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver”

http:// www.taxes.gov.az <http://www.taxes.gov.az> /vn/korrupsiya/

3. “Vergi orqanı əməkdaşlarının qeyri-etik davranışı barədə məlumat ver”

http: //www.taxes.gov.az <http://www.taxes.gov.az> /vn/etika/form.html

Vergi ödəyicilərinə xidmət mərkəzlərinə

Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

Vergilər Nazirliyi

Allah rəhmət eləsin!

Abstafada fəaliyyət göstərən Hüseyn Arif ədəbi məclisinin üzvləri el şairi Nəriman Mehdixanlıya, bacısı

Məryəm xanımın

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Etibarsız sayılır

Eynallı kənd sakini Hüseynov Kərəm Əli oğlunun adına olan JN-163 nömrəli Dövlət aktı itdiyi üçün etibarsız sayılır.

* * *

Ağstafa rayon sakini Məmmədova Fəridə Vahid qızının adına olan Torpaq sahəsinə aid JN-0018 nömrəli, 50201004 kod saylı Dövlət aktı itdiyi üçün etibarsız sayılır.

* * *

“Azəristiliktəchizat” Açıq Səhmdar Cəmiyyətinin Ağstafa İstilik sistemləri sahəsinə məxsus olan BDV seriyalı 367101, 367102, 367105, 367106, 367107, 367108, 367109, 367110, 367111, 367113, 367114, 367115, 367123, 367124, 367125, 367117, 367118, 367119, 367120, 367121, 367127, 367128, 367165, 367130, 367186, 367187 və 367199 nömrəli mədaxil qəbzləri itdiyi üçün etibarsız sayılır.

BAŞ REDAKTOR:

İBRAHİM ƏLİYEV

Həmtəsisçi:
“Ağstafa” qəzetinin jurnalist kollektivi

Şəadətnamə № 308

Redaksiya heyəti

L.Eyyubova, K.Abbasov, V.Əkbərov, İ.Mustafayev, N.Mehdixanlı, F.Vəliyev, A.Tağızadə

Qəzet redaksiyanın kompyüter mərkəzində yığılmış, səhifələnmiş və “Mətbuat firması” mətbəəsində çap olunmuşdur.

Ünvan: Ağstafa şəhəri, Heydər Əliyev pros. - 10
Tel: 5-14-56
mob: (050) 344-26-20
Tiraj: 1000